**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ**

**KOLLEGİYA QƏRARI**

**1000/02/002**

**Bakı şəhəri** **12 aprel 2021-ci il**

**"Azərbaycan Respublikası ərazisinə idxal olunan mallara və aksiz tətbiq edilən minik avtomobillərinə aksiz vergisinin hesablanması və ödənilməsi qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə" Dövlət Gömrük Komitəsinin 1997-ci il 25 dekabr tarixli 1107 nömrəli əmrində dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kollegiyası Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"nin 5.11.6-cı yarımbəndinə əsasən

**QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikası ərazisinə idxal olunan mallara və aksiz tətbiq edilən minik avtomobillərinə aksiz vergisinin hesablanması və ödənilməsi qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə" Dövlət Gömrük Komitəsinin 1997-ci il 25 dekabr tarixli 1107 nömrəli əmrinin 1-ci hissəsi ləğv edilsin.
2. Hüquqi Təminat İdarəsi (Sənan Muxtarov) bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
3. Qərar aidiyyəti üzrə göndərilsin.

**Kollegiyanın sədri** **Səfər Mehdiyev**